# SEVİL

## İŞTİRAK EDİRLƏR

S e v i l
B a l a ş
G ü l ü ş
A t a k i ş i
B a b a k i ş i
M ə m m ə d ə l i b ə y
Ə b d ü l ə l i b ə y
D i l b ə r
T a f t a
G ü n d ü z



## BİRİNCİ PƏRDƏ

Balaşın evi. Köhnə qayda ilə döşənmiş bir ev. Sevil tək oturub oxuyur.

S e v i l.

Ey bivəfa yar səni
Necə salım yada mən?
Çərxi fələk qoymadı
Kam alım dünyada mən.
Aman, ay aman, zalım yar!

Sənə nə olub, zalım yar?
Qadan, balan alım, yar.
Sən ki, belə deyildin,
Səni bir öyrədən var.
Aman, ay aman, zalım yar!

G ü l ü ş *(əlində lampa gəlir)*. Sevil, nə üçün belə solğunsan, yoxsa, bir yerin ağrıyır?

S e v i l. Yox. Gülüşcan, heç bir yerim ağrımır.

G ü l ü ş. Necə yox, gözlərin qıpqırmızı qızarmışdır, yenə də ağlayırsan?

S e v i l. Ürəyim sıxılır, Gülüşcan. Balaş bu gün də bu vaxtacan gəlib çıxmamışdır.

G ü l ü ş. Sən də öz qaydası ilə dünəndən bəri ac oturub onun yolunu gözləyirsən.

S e v i l. Nə edim, Gülüşcan, zəhrimara qalsın o çörək ki, biz yeyirik. Yazıq Balaş gecə-gündüz ac-susuz işləyir. Bir saat evdə çörək yeməyə əli çatmır. Budur, yenə də iki gündür evə gəlməmişdir.

G ü l ü ş. Nə olsun?

S e v i l. Nə olacaq, əvvəllər yoxsul idik, gündüzləri çalış-vuruş, əlimizə düşən bir parça çörəyi axşam şad ürəklə yeyib, dinc yaşayırdıq. İndi Allah bizim üçün bir parça ruzu yetirmişdir, amma